**"Əmtəə nişanlan və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli 93 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMI

"Əmtəə nişanlan və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli 93 nömrəli Fərmanının icrasının təmin etmək **məqsədi ilə:**

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla 1 ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Əmtəə nişanlan və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.3. müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

2. Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə tapşırılsın ki, aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla 20 gün müddətində:

2.1. "Əmtəə nişanlan və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasında əmtəə nişanlarının geniş tanınması Qaydalarının layihəsini;

2.2. həmin Qanunun 28-ci maddəsinin beşinci hissəsinin dördüncü cümləsində nəzərdə tutulmuş müqavilələrin qeydiyyatı Qaydalarının layihəsini;

2.3. həmin Qanunun 28-ci maddəsinin on üçüncü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş girov müqaviləsinin qeydiyyatı Qaydalarının layihəsini;

2.4. həmin Qanunun 26-cı maddəsinin doqquzuncu hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini;

2.5. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələlərin həlli üçün təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının hüquq (1-ci bəndin 1.1-ci, 1.2-ci, 1.3-cü yarımbəndləri üzrə), sənaye və energetika (2-ci bəndin 2.1-ci, 2.2-ci, 2.3-cü, 2.4-cü, 2.5-ci yarımbəndləri üzrə) şöbələrinə həvalə edilsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ

Bakı şəhəri, 25 may 2009-cu il

№ 123s